**Moskvada Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında” Bəyannamə imzalanıb. Regionda son zamanlar formalaşan yeni düzən və xüsusən də dünyanın fərqli qütbləri arasındakı münasibətlərin heç də ürəkaçan olmaması Azərbaycanın öz milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürütməsi zərurətinin yaranmasına gətirib çıxarıb.**

Rusiya ilə imzalanan birgə Bəyannamə Azərbaycanın heç bir halda qardaş Türkiyə və eləcə də digər müttəfiq dövlətlərlə münasibətlərində hər hansı dəyişiklik anlamına gəlmir. Ötən il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə Prezidentləri tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” artıq hər iki ölkənin parlamentləri tərəfindən ratifkasiya olunub. Bu sənəd iki qardaş ölkə arasındakı müttəfiqlik münasibətlərini daha da dərinləşdirib və Azərbaycan bununla da öz təhlükəsizliyi üçün əlavə zəmanət qazanıb.



# Moskva Bəyannaməsi milli təhlükəsizliyin qorunması baxımından mühüm önəm daşıyır

Azərbaycan türk dovlətləri ilə münasibətlərin dərinləşməsinə xüsusi önəm verir. Türk dövlətlərini birləşdirən şuranın 2009-cu ildə Naxçıvan sazişinə əsasən təsis edilməsi Azərbaycanın öz milli kimliyinə verdiyi önəmi bir daha təsdiq edir. Bu baxımdan, hər hansı digər ölkələr ilə bağlanan anlaşmalar da Azərbaycanın türk dövlətləri ilə münasibətlərinə hər hansı xələl gətirməyəcəyi də aydındır.

Məhz çoxşaxəli xarici siyasətin istiqamətlərində biri də ölkəmizin Avropa İttifaqı ilə münasibətlərinin daha da dərinləşməsidir. Gələn ay Bakıda Azərbaycan ilə Avropa İttifaqı arasında növbəti təhlükəsizlik dialoqunun keçirilməsi və 2022-ci ildə ikitərəfli sazişin imzalamasının gözlənilməsi də bundan xəbər verir. Etiraf edək ki, Türkiyə və Rusiya ilə müttəfiqlik edərək, Avropa İttifaqı ilə ikitərəfli sazişin imzalanmasının nəzərdə tutulması çoxşaxəli xarici siyasətin nəticəsində mümkün ola bilərdi.

Azərbaycanın 44 günlük Vətən savaşında əldə etdiyi parlaq zəfərdən sonra regionda formalaşan yeni düzən kontekstində hərbi qələbənin siyasi-diplomatik müstəvidə daha da möhkəmləndirilməsi olduqca vacibdir. Yeni bəyannamə də məhz bu məqsədə xidmət edir.

Moskva Bəyannaməsinin əsas fəlsəfəsi də hər iki ölkənin qarşılıqlı şəkildə müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət nümayiş etdirərək münasibətlərin güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlikdir. Bunun indiki sürətlə dəyişən regionda necə mühüm önəm daşıdığını təsəvvür etmək elə də çətin deyil.

Sənəddə ölkələrin müstəqilliyinin və ərazi bütövlüyünün tanınmasının xüsusi qeyd olunması regiondakı yeni düzən fonunda olduqca vacib məqamdır. Bəyannamədə hər iki ölkənin müstəqil xarici siyasət yürütməsi qeyd olunur və tərəflər bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinməyə dair öhdəlik götürürlər.

Bəyannamədə mühim məqamlardan biri də 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın, o cümlədən, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsinin vacibliyinin vurğulanmasıdır. Son anlaşma 10 noyabr bəyannaməsinin yerinə yetirilməsi üçün yeni rıçaqlar verir və imkanlar yaradır. Bu isə Zəngəzur dəhlizinin yenidən bərpası kimi öhdəliklərin reallaşmasına mühüm dəstək ifadə edir.

Ən əsası, Azərbaycanla Rusiya arasında müttəfiqlik Bəyannaməsindən sonra artıq Ermənistan üçüncü tərəfin mübahisələrə cəlb edilməsi kimi məsələlərdən öz maraqları üçün faydalana bilməyəcək. Regionda baş verənlər kontekstində xüsusən vurğulamaq lazımdır ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir və bu mövqeyi qısa müddət öncə Azərbaycan Prezidenti Kiyevə səfəri zamanı bir daha bəyan edib.

Bütövlükdə, Moskvada imzalanan sənəd Azərbaycanın Türkiyə və digər türk dövlətləri ilə münasibətlərinə hər hansı xələl gətirməməklə həmin əlaqələrin daha da güclənməsi fonunda dünyada bütün güc mərkəzləri ilə münasibətləri daha yüksək səviyyəyə çatdırmaqla ölkəmizin milli təhlükəsizliyinin qorunması baxımından əhəmiyyətlidir.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***